# Həqiqətən, sizin ən xeyirliniz gözəl əxlaq sahibi olanınızdır”.

Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) çirkin sözlər danışmaz və çirkin işlərə də can atmazdı və buyurardı: “Həqiqətən, sizin ən xeyirliniz gözəl əxlaq sahibi olanınızdır”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Çirkin sözlər danışmaq və ya çirkin əməllər etmək Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqından deyildi və o, nə bu əməllərə niyyət etmiş, nə də qəsd etmişdir. Çünki o, (Allahın salavatı və salamı onun üzərinə olsun) böyük əxlaq sahibi idi. O, (Allahın salavatı və salamı onun üzərinə olsun) deyirdi: Allah dərgahında sizin ən xeyirliniz, ən gözəl əxlaqa sahib olanınızdır: yaxşılıq edən, gülərüzlü olan, insanlara əziyyət verməkdən çəkinən və onların əziyyətinə dözümlülük göstərən, insanlarla gözəl şəkildə qaynıyıb qarışandır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee